*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 3-9*

# DİLÇİLİK

https://doi.org/10.62837/2025.6.3

**XƏDİCƏ HEYDƏROVA**
*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Azərbaycan dili tarixi şöbəsinin müdiri*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
heyderova73@mail.ru
*https://orcid.org/0000-0002-1148-8326*

## NƏSİMİ POEZİYASINDA BATİNİ DÖVR NƏZƏRİYYƏSİNİN LEKSİK TƏZAHÜRLƏRİ

**Xülasə:**

Bu məqalədə İslam təsəvvüfündə və klassik Azərbaycan ədəbiyyatında mühüm yer tutan batini dövr nəzəriyyəsinin terminoloji və leksik-semantik xüsusiyyətləri araşdırılır. X əsrdə İhvani-Səfa və İbn Miskəveyh tərəfindən əsaslandırılmış, daha sonra İbn Ərəbi və onun davamçıları (S. Konəvi, M. Rumi, Nəsir-Hüsrəv və s.) tərəfindən fəlsəfi sistemə çevrilmiş bu nəzəriyyə, İslamda reinkarnasiya ilə qarışdırılan, lakin mahiyyətcə fərqli olan batini bir kozmoloji modeldir. Bu məqalədə İmadəddin Nəsiminin poetik dilində işlənən batini dövr nəzəriyyəsi ilə bağlı təsəvvüfi terminlərin leksik-semantik təhlili aparılır. Araşdırmada mə’dən, nəbat, insü-can, tö’meyi-heyvan, tö’meyi-insan, dövran, mərcə’, süud, üruc, rücu və məbdə’ kimi ərəb mənşəli leksik vahidlərin Nəsimi poetikasında hansı mənəvi-mistik məzmunu daşıdığı araşdırılır. Nəsiminin "Bu cism evinə, taliba..." mətləli qəsidəsi əsasında ruhun təkamül yolu ilə mərhələli şəkildə maddədən insana keçidi təsvir olunur. Məqalədə dövr nəzəriyyəsinin iki əsas istiqaməti – ontoloji və təkamül yönümlü yanaşmalar – müqayisəli şəkildə təhlil olunur. Batini dövr nəzəriyyəsi reinkarnasiyadan fərqli olaraq ruhun bir dəfə enib, kamillik mərhələlərini keçərək Haqqa dönüşünü nəzərdə tutur. Bu çərçivədə terminlər semantik qatlılıq, batini konnotasiya və fəlsəfi dəyərləndirmə aspektində şərh olunur. Məqalə, Nəsimi poetikasında mistik leksikanın linqvistik strukturu və batini məna qatlarının təhlilinə yönəlmişdir.

**Açar sözlər:** Batini dövr, təsəvvüf terminləri, Nəsimi, semantik qatlılıq, leksik təhlil.

Ən çox mübahisə doğuran və çox zaman reinkarnasiya ilə qarışıq salınan batini nəzəriyyənin əsası islam dünyasında ilk dəfə X əsrdə İhvani-Səfa tərəfindən qoyulmuş və İbn Miskəveyhi tərəfindən davam etdirilmişdir. Mühyəddin İbnül-

Ərəbi, Sədrəddin Konəvi, Mövlanə Cəlaləddini Rumi, Nəsir-Hüsrəv, Feyzi-Hindi və Yunus Əmrə başda olmaqla bir çox mütəsəvviflər tərəfindən güclü bir şəkildə ifadə edilən dövr nəzəriyyəsi "Biz Allaha aidik, yenə Ona dönəcəyik" [Bəqərə 2:156] ayəsinə əsaslandırılmağa çalışılmışdır.

Mühyəddin İbnül-Ərəbi (1165-1240) batini adlandırdığımız dövr nəzəriyyəsini belə təsvir edir: *"İnsanın maddəsi Zatdan əsma və sifətə, elm, yəni əyani-sabitə mərtəbəsinə enər. Oradan əqlə, nəfsə, təbiət, hayülə və cismi-küllə və sonra da növbə ilə digər mərtəbələrə nazil olub, nəhayət nəbat və heyvan mərtəbəsinə qədər gəlir. Xülaseyi-məratibdə əyləşdiyi dərəcədə istedadı artar. Ona ruh üflənib nüşuri-insani tamam olur"* [3, s. 272]. Yəni İbn Ərəbiyə görə, Tanrıdan ayrılan ruh bitki, heyvan mərətəbələrini keçir, lakin yalnız insan mərtəbəsində əyləşir. Bu, dövr nəzəriyyəsinin reinkarnasiya ilə eyni olmadığını göstərən əsas şərtdir. İbnül-Ərəbi axirəti inkar edən reinkarnasiyanı küfr hesab edir. Beləliklə, təsəvvüfi düşüncəyə görə, dövr nəzəriyyəsinin tərifi belədir: "Vücudi-Mütləqdən[1] ayrılan ilahi nurun torpaqdan mədənə, ordan bitkiyə, bitkidən heyvana, hayvandan məxluqatın özü və ən şərəflisi olaraq yaradılan insana intiqal edərək, onun surətində ortaya çıxmasına və insanın da, insani-kamil mərtəbəsinə yüksələrək ilk zühur etdiyi əsl qaynağına dönməsi macərasına dövr deyilir" [6, s. 252].

Məhəmməd Füzuli dövretməni belə şərh edir: "Ünsürə mənsub olan cövhərlər gah tərkib edilmək qabiliyyəti əldə edir və bir-birilə birləşərək tədriclə mədəniyyat, bitkilər və heyvanlar surətində dövr edir və bu mərhələlərin hər birisində yuxarı (ülvi) aləmdən xüsusi feyz alır. Bu (cür dövretmə) *kövn* (varlıq) adlanır. Gah da bu tərkib hissələri bir-birindən ayrılaraq hər bir hissə bir kürəyə doğru meyl edir və beləliklə, tərkib aləmindən təklənmə (təcziyə, sadələşmə) aləminə keçir. Bu (cür dövretmə) isə fəsad (pozulma, dağılıb parçalanma) adlanır" [2, V, s.91].[2]

İmadəddin Nəsiminin şeirlərində batini dövr nəzəriyyəsinə aid aşağıdakı leksik vahidlər müşahidə olunur: *mə'dən, nəbat, insü-can, tö'meyi-heyvan, tö'meyi-insan, dövran, mərcə', əqli-küll, süud, üruc, rücu, məbdə'.*

İlk beş termin (mə'dən, nəbat, insü-can, tö'meyi-heyvan, tö'meyi-insan) Nəsiminin batini dövr nəzəriyyəsinə həsr olunmuş "Bu cism evinə, taliba, seyr edərək çün can gəlir" mətləli qəsidəsində mərhələli şəkildə əks olunmuşdur. Bu qəsidənin ilk beytində Nəsimi insan bədəninə ruhun hardan gəldiyini soruşur:

*"Vardır sualım çün sana, vergil cavab, qalma dona:*
*Bu ruhi-qədimi mana, degil ki, sən qandan gəlir?"* [4, I, s. 12].

Üçüncü beytdən etibarən təbiətin təkamül prosesininin ardıcıllığını verməyə başlayır. Təsəvvüf ədəbiyyatında ümumi qəbul olunmuş fikrə əsasən, ruh göstərilən

---

[1] Vücudi-Mütləq (*ər.*) – Allah
[2] Ərəbcəsi: لان الجواهر البسيطة والعنصرية تارة تستعد للتركيب وتلمتم بعضها ببعض وتدور في الصور المعدنية والنباتية والحيوانية بالتدريج فيكسب في كل مقام افاضة مخصوصة من العالم العلوى ويتمى ذلك كونا وتارة تنفك تلك الاجزاء ما عن بعض و يميل كل جزء منها الى كرة وينتقل من عالم التركيب الى عالم التفريد و يسم ذلك فسادا [pp.31]

ardıcıllıq üzrə varlıqların üzərində zərrələr şəklində gəzir: torpağa, ordan mineral, suxur və daşlara, sonra bitkiyə, ordan ağaca, daha sonra heyvana keçir.

*"Çün xakdən edər səfər mə'dən, nəbat olur şəcər,*
*Rövşən[3] görər əhli-nəzər[4] k'ol tö'meyi-heyvan gəlür"* [4, I, s. 12].

Burda maraqlı məqam odur ki, şair sonra heyvanın "insü-can"a çevrildiyini söyləyir: *Çün tö'meyi-heyvan olur, o da ki, insü-can[5] olur"* [4, I, s. 12].

Daha sonra əli-ayağı olmayan ruhun uça-uça gəldiyini deyən Nəsimi yalnız bundan sonra əti-qanı, bədəni olan insanın yarandığını, ona ruh girdiyi zaman canlandığını bildirir:

*İnsana vasil olmağa bidəstü-pa[6] pərran[7] gəlür.*
*Çün tö'meyi-insan[8] olur, ol ruh, ol heyvan[9] olur,*
*Ətü dəri, iligü qan pəs tö'meyi-insan gəlir"* [4, I, s. 12].

Nəsimidə iki mərhələnin ayrıca olaraq göstərilməsi o deməkdir ki, Nəsimi *ins* ilə *insanı* fərqləndirir. Sonrakı mərhələdə Allahdan gələn ruh insana Rəhman (Allah) surəti verir:

*"Çün tö'meyi-insan olur, insanü cismü can olur.*
*Pəs ruhi-insani olub, çün surəti-Rəhman gəlir"* [4, I, s. 13].

Rəhman Allahın 99 əsmai-hüsna adlarından biridir və Nəsiminin dilində Məhəmməd peyğəmbərin "Allah Adəmi Rəhman surəti üzərinə yaratdı" hədisindən iqtibas edilmişdir.

Nəsiminin şeirlərində batini dövr nəzəriyyəsi ilə bağlı işlətidiyi terminlərdən biri də Məbdə' leksik vahididir.

*"Kaf ilə nun məbdə'imdir, mənşəimdir kainat"* [5, II, s. 112]

*Məbdə'* (مبدأ) ərəb mənşəli söz olub kök, əsil, qaynaq, başlanğıc deməkdir. Allahın məxluqatı ilkin yaratdığı zaman müddətinə deyilir. Bu beytdə işlənən *kaf ilə nun* Quranda 18 ayədə rastlanır və Allahın كن"Kun!"(Ol!) əmrinin hərflərlə ifadəsidir. Nəsimi Allahın "kun" əmrinin bir başlanğıc olğunu bildirir və mənşəyinin kainat olduğunu göstərir.

*Əqli küll* dedikdə, təsəvvüf və irfanda Məhəmməd (s.) peyğəmbərin nuru nəzərdə tutulur [babayev, ].

*Əqli küll*ü, Ərşi Kürsü, lövhü qələm
Çar ünsür, nöh asimandır söz!

Bu beytdə Nəsimi bildirir: "Söz – Məhəmməd (s.) peyğəmbərin nuru, Allahın dərgahı hesab olunan Ərş və Kürsü, Allahın dərgahındakı kitabı yazan qələm, dörd

---

[3] Rövşən – aydın, aşkar.
[4] Əhli-nəzər (ərəb) – bəsirəti açılq olan, arif adam.
[5] İnsü-can (ərəb) – insan.
[6] Bidəstü pa (*fars.* بی دست و پا) – əlsiz-ayaqsız, aciz, yazıq, bacarıqsız.
[7] Pərran (fars. پرّان) – uçan.
[8] Tö'meyi-insan (ərəb) – əti-qanı olan insan.
[9] Heyvan (ərəb حیوان) – burada: diri, canlı.

təbiət ünsürü və doqquz göy qatıdır!" Şair burada Allahın "Kun!" əmrinə işarə vurur. Yəni Allah "Ol!" dedi və oldu, büyün yaradılışlar xəlq olundu.

*Məbdəi-iləl* batini dövr nəzəriyyəsinin başlanğıcdan etibarən ortaya çıxan birinci 180°-li dairəsinə deyilir. Bu hissə "qövsü-nüzul" da adlandırılır.

Ey hikmətin rəisi, mə'lulü illəti qoy
Əvvəl bu cövhəri bil kim, məbdəi-iləldir [4, s.220].

Burada birinci misrada işlənən *mə'lulü illət* birləşməsi təsəvvüfdə illət (xəstəlik) səbəb, mə'lul (xəstə) isə nəticə anlamlarını ifadə edir. Beləliklə, fəlsəfə kateqoriyaları olan səbəb və nəticə meydana gəlir. Şair demək istəyir ki, ey hikmət, elm başçısı, sən səbəb və nəticə qanunlarını qoy bir kənara, əvvəl qövsü-nüzul ilə gələn cövhəri (ruh) anla!

*Rücu* (رجوع) ərəb dilində dönmə, geri dönmə deməkdir. Aşağıdakı beytdə şair bənzətmələr həyata keçirir: "Qızıl, cəvahir mədənsiz olmaz. Bəs sən, ey Ruh (gövhəri-yeganə), sənin mənbəyin haradır?!" Təbii ki, şair verdiyi sualın cavabının Allah olduğunu bilir, amma o, bunu xüsusi şövqlə soruşur.

Mə'dənsiz altun olmazü kansız degil göhər
Ey gövhəri-yeganə, rücuun nə kanədir? [5, II, s.157]

*Üruc* (عروج) *ər*əb dilində yuxarı çıxma, göyə qalxma, yüksəlmə deməkdir. Bu söz batini dövr nəzəriyyəsinin termini olan 180°-li *qövsi-üruc* birləşməsinin tərkib hissəsidir. Allaha doğru yüksəliş mərhələlərini ifadə edir. Aşağıdakı beytdə işlənən həziz (حضيض) nücum termini olub Ayın və ya digər planetlərin Yerə ən yaxın məsafədə olan nöqtəsi; Yer kürəsi və digər planetlərin Günəşin mərkəzinə ən uzaq uc nöqtəsi [Lugat-i Remzi حضيضmaddesi. Sayfa:449].

*"Həm həzizəm, həm ürucam, həm qərinəm, həm büruc*
*Gərdişi-çərxü mədaram, şəhrinin məşhuruyam"* [5, II, s.112]

Şair deyir: Mən Yerə ən yaxın nöqtəyəm, həm (Allaha yüksələn) qövsi-ürucam, yanaşıyam, həm bürcləriəm. Tale gərgişinin mərkəzindəyəm. Şəhərdə məşhuram.

*"Qaşın me'racinə sufi irişmək istər, ey huri*
*Vəli hər qasir idrakın ürucu irməz ol yayə"* [5, II, s.34].

*Möhbit* (مهبط) yenə ərəb mənşəlidir. Enəcək yer, eniş yeri.

*Möhbətimiz sifati çün Zati-Qədimi-Fərd imiş,*
*Vahidi-bizəvalədir mərcə ilə süudumuz.*

*Süud* (صعود) ərəb sözü olub yüksəyə, yuxarıya çıxma, yüksəlmə, ucalma mənasını ifadə edir. Mütəsəvviflərə görə, mütləq varlıqdan (Allahdan – X.Heydərova) təcəlli edərək ayrılan ruhun dövr adlanan dairəşəkilli yolçuluqda Haqqa dönmə yarımdairəsi. Buna "qövsi üruc", "qövsi süud", "rücu" və "məad" da deyilir.

*Mərcə'* (مرجع) ərəb dilində dönülən yer, qayıdılan yer deməkdir.

Möhbətimiz sifati çün zati-qədimi-fərd imiş
Vahidi-bizəvalədir mərcə' ilə süudumuz [5, II, s.80].

M.Füzuli "Mətlə'ül-etiqad" əsərində yazır: "Əşərilərə görə, iki və daha artıq hissədən ibarət, Mötəzililərə görə isə dörd və ya səkkiz hissədən ibarət olan mürəkkəblər cisim, qeyri-mürəkkəblər isə cövhər adlanır. Filosoflara görə, cövhərlər beş növdür. Ona görə ki, ya bir məhəldə (yerdə) yerləşir, ya həmin yerləşənin məhəllidir, ya bunların hər ikisinin birləşməsindən ibarətdir, yaxud həmin birləşmədən idarəedilmə etibarilə asılıdır və ya asılı deyildir. Birinci surət (şəkil), ikincisi həyula (maddə), üçüncüsü cisim, dördüncüsü nəfs (ruh), beşincisi isə əqldən ibarətdir" [2, V, pp, 92].

*"Yarəb, ol pakizə cövhər kim, bəşərdir surəti*
*Qangı aləmdən gəlir, adı nədən insan olur?"* [5, II, s.133]

Təsəvvüf ədəbiyyatının düşündürücü və mübahisəli mövzularından biri olan dövr nəzəriyyəsi qəbul etdiyimiz paradiqmaya əsasən, İmadəddin Nəsimi yaradıcılığında iki kateqoriyada özünü göstərir: zahiri və batini. Zahiri dövr nəzəriyyəsinə göz ilə görülən fələklərin, planetlərin, ulduzların dövretməsi aid edilir. Şair əsərlərində birinci kateqoriya ilə bağlı *dövr, dövran, dövri-qəmər, fələk, dövri-fələk, tasi-fələk, çərxi əflak, çənbər* kimi nücum terminlərindən istifadə etmişdir. Bu sözlər, əsasən, ərəb dilindədir. Yalnız *çərx* və *çənbər* terminləri fars mənşəlidir.

Nəsiminin şeirlərində istifadə etdiyi nücum elmi qədim yunanlara məxsus dünyanın geosentrik sisteminə əsaslanır. Bu sistem ilk dəfə yunan filosofu Amansimandr tərəfindən b.e.ə. 6-cı əsrdə qoyulmuş, Aristotel tərəfindən isə təkmilləşdirilmişdir. Lakin bir çox hallarda Ptolomey sistemi deyə adlanır.

Batini dövr nəzəriyyəsi ən çox mübahisə doğuran və çox zaman reinkarnasiya ilə qarışıq salınan kateqoriyadır. Bu nəzəriyyənin əsas mahiyyəti ondan ibarətdir ki, Allahdan ayrılan ilahi nur və ya ruh göydə və yerdə müxtəlif mərhələlər keçdikdən sonra yenidən Tanrıya qayıdır. İnsan ruhu kamilləşmə yolu keçməzsə, Allaha qovuşa bilmir və cəhənnəmə düşür. Tədqiqat zamanı batini dövr nəzəriyyəsi ilə bağlı yazılmış əsərlərdə iki yanaşma müşahidə olundu:

1) Ruhun seyr etməzi nöqteyi-nəzərindən: Tanrıdan ayrıldıqdan sonra enişə keçən və alçalan ilahi nur və ya ruh sıra ilə külli-ağıl, doqquz ağıl, doqquz nəfs, doqquz fələk, dörd təbiət və dörd ünsür səviyəsinə qədər düşdükdən sonra yüksəlişə keçərək sıra ilə maddə, bitki, heyvan, insan və kamil insan səviyyəsinə qədər çıxar.

2) Təkamül nöqteyi-nəzərindən: Allahın əmri və təsiri ilə göy cisimləri və fələklər fırlanıb hərəkət edərək 4 təbiət ünsürünü bir-birinə keçirmiş, birləşib-ayrılma nəticəsində tərkiblər dəyişmiş və ilkin minerallar, daşlar meydana gəlmiş, sonra mərcan, zaman keçdikcə bitkilər, sonra dişi xurma, yenə zaman keçdikcə heyvanlar meydana gəlmiş, heyvan və insan aləmi arasında meymun, nasnas yaranmışdır (*nasnas* ərəb mifologiyasında yarı heyvan, yarı insan olan varlıqdır). Sonda insan meydana gəlmişdir. Qeyd etmək lazımdır ki, Nəsimidə "nasnas" əvəzinə "insü-can" termini işlənir. Bu sonuncu yanaşma deməyə əsas verir ki, Çarlz Darvin evolyusiya ideyasını məhz Şərq elmindən götürmüşdür. Batini dövr nəzəriyyəsi

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 3-9*

reinkarnasiyadan onunla fərqlənir ki, ruh Allahdan bir dəfə ayrılır, ölümdən sonra kamilləşmə yolu keçdiyi halda, yenidən Ona qayıdır, əks halda cəhənnəmə məhkumdur. Reankarnasiyada isə ruh sonsuz olaraq bir bədəndən digərinə (hətta heyvana) keçir. Nəsimi öz yaradıcılığında batini dövr nəzəriyyəsi ilə bağlı *mə'dən, nəbat, insü-can, tö'meyi-heyvan, tö'meyi-insan, dövran, mərcə', süud, üruc, rücu, məbdə'* təsəvvüf terminlərindən istifadə etmişdir. Bu sözlər ərəb dilindədir.

**Ədəbiyyat**

1. Babayev, Yaqub. Təriqət ədəbiyyati: Sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı: «Nurlan»2007, 128 səh.
2. Füzuli M (2005) Əsərləri. Altı cilddə. V cild. Şərq-Qərb, Bakı.
3. Gölpınarlı A. Melamilik ve Melamiler. İstanbul: Türkçe Gri Yayın, – 1992, – 410 səh.
4. Nəsimi İ. Əsərləri. Elmi-tənqidi mətnin tərtibi və müqəddimə: Cahangir Qəhrəmanov. 3 cilddə. 1-ci cild. Bakı: Elm Nəşriyyatı, – 1973, – 656 səh.. عماد الدين نسيمى اثرلرى، علمى تنقيدى متنيک ترتيبى و مقدمه جهانگير قهرمان اوف اوچ جلدده، بيرينجى جلد باكي علم نشرياتى، 1973
5. Nəsimi İ. Əsərləri. Elmi-tənqidi mətnin tərtibi və müqəddimə: Cahangir Qəhrəmanov. 3 cilddə. 1-ci cild. Bakı: Elm Nəşriyyatı, – 1973, – 377 səh.. عماد الدين نسيمى اثرلرى، علمى تنقيدى متنيک ترتيبى و مقدمه جهانگير قهرمان اوف اوچ جلدده، ايكينجى جلد باكي علم نشرياتى، 1973
6. Uzun M. Devriyye. Diyanet İslam Ansiklopedisi. Cilt 9. İstanbul, – 1994, – s. 251-253. www.yazmalar.gov.tr, Risâle-i Devriyye, 06 Mil Yz A 6200, (15.04.2015).
7. محمد فضولى مطلع الاعتقاد القصائد العربية. دار الطبع الاكاديمية العلوم في آذربايجان السوفياتية الاشتراكية باكو – ١٩٥٨

**ХАДИДИЖА ГЕЙДАРОВА**

**БАТИНИСТСКАЯ КОНЦЕПЦИЯ ЦИКЛИЧНОСТИ КАК ЛИНГВИСТИЧЕСКАЯ СТРУКТУРА В АЗЕРБАЙДЖАНСКОЙ СУФИЙСКОЙ ПОЭЗИИ**

**РЕЗЮМЕ**

В данной статье анализируются лексико-семантические и терминологические особенности **эзотерической теории кругооборота (даур)** в исламском суфизме и классической азербайджанской поэзии. Теория, восходящая к X веку и разработанная Ибн Мискавейхом, Ибн Араби и другими мыслителями, представляет собой мистическую модель нисхождения и возвращения души к Богу и не совпадает по своей сути с реинкарнацией. В статье проводится лексико-семантический анализ суфийских терминов, связанных с эзотерической теорией круговорота в поэтическом языке Имадеддина Насими. Исследуются арабские термины, такие как ма'дан, набат, инсü-джан, тюмейи-хайван, тюмейи-инсан, дауран, марджа', сууд, урудж,

руджу и мабда’, и их духовно-мистическое содержание. Особое внимание уделяется касыде «Бу джисм эвине, талиба...», где Насими описывает постепенный путь души от материи к совершенной форме человека. Теория круговорота представлена в двух аспектах: онтологическом и эволюционном. Эзотерический цикл отличается от реинкарнации тем, что душа спускается только один раз и возвращается к Богу через ступени духовного совершенствования. Термины рассматриваются с точки зрения семантической многослойности, философской нагрузки и внутренней символики. Цель статьи — выявить лингвистические особенности суфийской терминологии в поэтическом дискурсе Насими и раскрыть глубинные значения, скрытые в лексике.

**Ключевые слова:** эзотерический цикл, Насими, суфийская терминология, семантика, лексика.

**KHADIJA HEYDAROVA**

**A LINGUISTIC STUDY OF THE ESOTERIC CONCEPT OF DAWR IN CLASSICAL AZERBAIJANI SUFI LITERATURE**

**ABSTRACT**

This article examines the lexical-semantic and terminological structure of the esoteric theory of cyclical creation (Dawr) within Islamic mysticism and classical Azerbaijani poetry. Originating in the 10th century through the works of Ikhwan al-Safa and Ibn Miskawayh and developed philosophically by Ibn Arabi and his followers (e.g., Sadr al-Din Qunawi, Rumi, Nasir Khusraw), this theory represents a metaphysical model of descent and return of the soul to its divine origin. Based on the works of Nasimi and Fuzuli, the article analyzes specific terminological units and their multi-layered semantic fields. This article presents a lexical-semantic analysis of Sufi terms related to the esoteric theory of cyclical return in the poetry of Imadaddin Nasimi. Arabic-origin lexical units such as ma‘dan, nabat, insu-jan, tö’meyi-hayvan, tö’meyi-insan, dawran, marja‘, su‘ud, ‘uruj, rujū‘, and mabda’ are examined in the context of Nasimi’s mystical discourse. The analysis focuses on the qasida beginning with “Bu cism evine, taliba...,” where the soul’s journey from mineral to human form is depicted. The study compares two approaches to the devriyye (cycle) theory: ontological descent and evolutionary ascent. Unlike reincarnation, the batini cycle assumes the soul descends only once and returns to God after traversing stages of spiritual perfection. The terms are analyzed through their layered semantics, metaphysical meaning, and symbolic resonance. The article aims to reveal how Sufi poetic language encodes sacred cosmological knowledge and how Nasimi constructs a lexicon rich in esoteric philosophy and mysticism.

**Keywords:** Batini cycle, Nasimi, Sufi terminology, semantics, lexical analysis.

**Rəyçi: akademik Möhsün Nağısoylu**